Səh. 2 Tələb etməyə cəhd etməyən tələbələr – Azər Musaoğlu
Səh. 5 Qarğanın işləkləri – Afiq Muxtaroğlu
Səh. 5 Ağ ölüm – Aytən Fətullayeva
Səh. 6 Həsrətin kəsdiyi ömür – Esmira Ələkbərli
Səh. 3 Müsibətdən ibrət almaq – Hacı Bəkiroğlu
Səh. 4 BAŞ NAZİR: 5000 TƏLƏBƏ 300 LARİ TƏQAÜD ALACAQ
Səh. 7 “Koroğlu”nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 SENTYABR
2023-CÜ İL
№ 017 (188)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## TENGİZ TSERTSVADZE: MİQRASİYA PROSESLƏRİ GÜRCÜSTANDA HİV/QİÇS EPİDEMİYASININ AĞIRLAŞMA RİSKİNİ ARTIRIR



Miqrasiya prosesləri Gürcüstanda HİV/QİÇS epidemiyasının ağırlaşma riskini artırır. Bu da səbəbsiz deyil, HİV-ə yoluxma riski yüksək olan ölkələrdən miqrasiya ciddi problemlər yaradır. Bu barədə Gürcüstanın İnfeksion Xəstəliklər Mərkəzinin direktoru Tengiz Tsertsvadze özünün feysbuk səhifəsində yazıb.

Onun sözlərinə görə, dövlət miqrantlarla müvafiq iş aparmasa, vəziyyət daha da ağırlaşa bilər. Miqrantlarla daimi iş aparılmalı, bütün HİV-ə yoluxmuş miqrantlar, eləcə də onlarla təmasda olan şəxslər vaxtında müalicə və qulluq xidmətlərinə cəlb olunmalıdır.

O, bildirib ki, son 20 ay ərzində Gürcüstanda 226 nəfər əcnəbi vətəndaşa müvafiq müalicə xidməti göstərilib. Onların da 96-sı Rusiya, 81-i Ukrayna vətəndaşıdır.

“Son vaxtlar sosial şəbəkələrdə xüsusilə Rusiya və Ukraynadan miqrasiya proseslərinin aktivləşməsinin ölkədə HİV/QİÇS epidemiyasının pisləşmə riskini artırması ilə bağlı narahatlıqlar ifadə olunur. HİV-in yüksək sürətlə yayılmasını nəzərə alsaq, bu, əsassız deyil”, – deyə T.Tsertsvadze vurğulayıb.

## TÜRKİYƏ-GÜRCÜSTAN SİYASİ MƏSLƏHƏTLƏŞMƏLƏRİ KEÇİRİLİB



Sentyabrın 12-də İstanbulda Türkiyə və Gürcüstan arasında siyasi məsləhətləşmələr baş tutub. Bu barədə Gürcüstanın Xarici İşlər Nazirliyi məlumat yayıb.

Məlumata əsasən, Gürcüstan nümayəndə heyətinə Gürcüstanın xarici işlər nazirinin birinci müavini Laşa Darsalia, Türkiyə nümayəndə heyətinə isə Türkiyənin xarici işlər nazirinin müavini Burak Akçapar başçılıq edib.

Görüşdə tərəflər Gürcüstan və Türkiyə arasında mövcud strateji tərəfdaşlığı və ikitərəfli əməkdaşlığı müsbət qiymətləndirib, yüksək səviyyəli səfərlərin həyata keçirilməsinin vacibliyini vurğulayıblar.

Türkiyə tərəfi bir daha Gürcüstanın ərazi bütövlüyü və suverenliyinə, həmçinin Gürcüstanın NATO-ya inteqrasiyasına dəstəyini ifadə edib.

Görüşdə həmçinin regionda mövcud olan problemlər və onların həlli yollarına da diqqət yetirilib. Bölgədə sülhün və sabitliyin təşviqində Gürcüstan və Türkiyənin rolu nəzərdən keçirilib.

Gürcüstan və Türkiyə arasında ticari-iqtisadi əməkdaşlığın dərinləşdirilməsi və investisiyaların cəlb edilməsi perspektivləri də müzakirə mövzusu olub. Mövcud proseslər nəzərə alınaraq çoxtərəfli əməkdaşlıq məsələləri, birgə regional layihələrin həyata keçirilməsinin vacibliyi və iki ölkənin tranzit-nəqliyyat potensialından tam istifadə edilməsinin zəruriliyi qeyd olunub.

Sonda tərəflər müxtəlif istiqamətlərdə əməkdaşlığın intensivləşdirilməsi və sıx ünsiyyətin davam etdirilməsi barədə razılığa gəliblər.

## TORPAQ SÜRÜŞMƏSİ NƏTİCƏSİNDƏ ÖLƏNLƏRİN SAYI 32 NƏFƏRƏ ÇATIB

Gürcüstanın Oni bələdiyyəsindəki Şovi kurort zonasının yaxınlığında baş vermiş torpaq sürüşməsi nəticəsində ölənlərin sayı 32 nəfərə çatıb.

Gürcüstanın Daxili İşlər Nazirliyinin yaydığı məlumata əsasən, ölənlərdən daha birinin meyiti Çançaxi çayının yatağında tapılıb. Daha bir nəfərin axtarışlarının aktiv şəkildə davam etdirildiyi qeyd olunub.



Xatırladaq ki, təbii fəlakət avqustun 3-də baş verib. Hadisə ilə əlaqədar avqustun 7-də Gürcüstanda matəm elan edilib.

## GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRLİYİ QARABAĞDA KEÇİRİLƏN QONDARMA PREZİDENT SEÇKİLƏRİNİ TANIMADIĞINI BƏYAN EDİB

Gürcüstanın Xarici İşlər Nazirliyi Gürcüstan dövlətinin Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünü dəstəkləməsi ilə bağlı bəyanat yayıb.

“Gürcüstan Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bildirir və Qarabağda 9 sentyabr 2023-cü ildə keçirilmiş qondarma prezident seçkilərini tanımır”, – deyə bəyanatda qeyd olunub.





# TƏLƏB ETMƏYƏ CƏHD ETMƏYƏN TƏLƏBƏLƏR

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Əvvəla, ali məktəblərə qəbul olunan bütün tələbələri ürəkdən təbrik edir, onlara gələcək təhsillərində bol-bol uğurlar, seçdikləri ixtisasın peşəkarı olmalarını arzu edirəm!

Tələbə olmaq təkcə universitetə gedib-gəlməkdən, yüz vərəqli dəftərləri yazıb-doldurmaqdan, qalın kitabların şəkilsiz səhifələrindəki mətnləri gecə-gündüz əzbərləməkdən, diplom almaqdan ibarət deyil; tələbə olmaq, həm də, kitabxanalara, sərgilərə, etiraz aksiyalarına (!) gedib-gəlməkdən, forumlarda, görüşlərdə, konfranslarda və təhsillə, elmlə bağlı bu kimi yığıncaqlarda iştirak etməkdən, beynini biliklə doldurmaqdan, qalın kitabların şəkilsiz səhifələrindəki mətnləri araşdıraraq dərk etməkdən ibarətdir. Tələbə olmaq, əlbəttə, təkcə bunlarla kifayətlənmir, bunun istirahəti, əyləncəsi, macərası da qaçılmazdır və tələbə həyatı yaşayanlar üçün bütün bunlar normaldır.

Tələbə gələcəyin müəllimi, həkimi, hakimi, mühəndisi, alimi, diplomatı, incəsənət xadimi, bir sözlə, gələcəkdir, gələcəyin özüdür, gələcəyin danışan dili, görən gözüdür (əlbəttə, əgər məcazi mənada lal və kor deyilsə). O gələcəyin bu indikindən daha yaxşı olması üçün keyfiyyətli təhsil alan bilikli, savadlı, aktiv, mübariz, siyasətə qarışan, tənqid edən, tələb edən tələbələr lazımdır.

Yeri gəlmişkən, Bəşir Əhmədovun "Etimologiya lüğəti"nə görə, ərəb sözü olan "tələbə" – "tələb edən" deməkdir.

Elə isə, hanı bizim tələb edən tələbələrimiz?..

2018-ci ildə "Yeni Yol"un 64-cü sayında gedən "Görünməyən tələbələr" yazısındakı fikirlərimi yenidən təkrarlamaq istəmirəm. Üzərindən beş il ötsə də heç nə dəyişməyib...

Bizim tələbələri axtarıb tapmaq universitetlərin həyatından neft axtarıb tapmaqdan çətindir. Nə tədbirlərdə görsənərlər, nə tamaşalara, sərgilərə gedərlər, nə etiraz aksiyalarına qoşularlar, nə kitabxanalarda gizlənərlər... Bizim tələbələrə rast gəlsən, uzağı, paytaxtdan rayona gedib-gələn "marşrutkalarda" rast gələrsən – əllərində smartfon, qulaqlarında qulaqcıq...

Niyə bizim tələbələrin tələbə təşkilatları yoxdur? Niyə bizim tələbələr təşkilatlanmırlar, bir araya gəlmirlər? Ölkə bir yana qalsın, təhsil aldıqları universitetlərin sosial, siyasi həyatında heç bir rol oynamırlar, qayda və qanunlara heç bir təsirləri yoxdur, heç nəyə qarışmırlar. Nəinki təhsil aldıqları universitetlərin həyatında, heç həyatında də düz-əməlli görsənmirlər.

Danışanda ağzımıza çullu dovşan sığmır – ay nə bilim, üç mindən çox tələbəmiz var, gürcü dilini bilən tələbələrin sayı ildən-ilə artır; ay nə bilim, tələbələr dövlət strukturlarında işlə təmin edilirlər və sair və ilaxır... Hanı bəs? *(Qohumluqla, tanışlıqla nələrəsə nail olanların, nepotizm "qurbanlarının" bura dəxli yoxdur. Bunu sağ olsaydı nənəm də bacarardı. Allah ölənlərinizə rəhmət eləsin!)*

Real aləmdə bizimkilərə aid heç bir tələbə təşkilatı tapa bilməyib, keçdim virtual aləmə. Feysbukda Azərbaycan dilində eyni məzmunda adı olan beş qrupa rast gəldim. Qruplardan dördü məxfi, yəni qapalı, paylaşımları yalnız üzvləri görən, biri isə açıq idi, yəni paylaşımlarını qrupun üzvü olmayanlar da görə bilirlər. Kaş bu da qapalı olaydı; təhsilə, tələbəliyə, elmə dəxli olmayan paylaşımları, bu çal-çağırı, reklamı, propaqandanı, yerlibazlığı, bu biabırçılığı görməyəydim... Nə isə...

Tarixi vərəqləsək görərik ki, dünyanın sosial, siyasi, iqtisadi, mədəni həyatında edilən 180 dərəcəlik dəyişikliklərdə tələbə təşkilatlarının, tələbələrin böyük rolu olub həmişə. Tələbə təşkilatı olmayan cəmiyyətlərdə tələbələr də yox kimidirlər, görsənmirlər, görsənməyəcəklər də. Və ya varsa da və müstəqil, azad düşüncəli, bilikli, əqidəli, ədalətli, mövqeli, mübariz tələbələrin deyil, hansısa siyasi partiyanın, xarici ölkənin, səfirliyin, qeyri-hökumət təşkilotusunun, dini qurumun təşəbbüsü, dəstəyi, əli ilə yaradılıbsa, bu, daha betərdir. Elə olmaması olmasından daha xeyirlidir. Bundansa gürcü tələbələrin yaratdıqları mövcud müstəqil, təpədən dırnağa tələbələrə aid olan tələbə təşkilatlarına qoşulmaq, əməkdaşlıq eləmək də olar.

Bəşir Əhmədovun "Etimologiya lüğəti"nə görə, latın dilində olan "student" sözü isə "cəhd göstərən" deməkdir.

İnanıram ki, nə zamansa öz biliyinə, savadına, gücünə arxalanaraq, heç bir siyasi partiyanın, xarici ölkə səfirliyinin, qeydi-hökumət təşkilotusunun, dini qurumun dəstəyini qəbul etmədən, təhsil, elm, mübarizə, azadlıq məsələni yandırıb başının üstünə ucaldaraq görünməyən tələbələrimizi işıqlandırıb üzərə çıxarmaq, bir araya toplayıb tələbə təşkilatı qurmaq üçün kimsə mütləq cəhd edəcək... Əvvəlcə biri cəhd edəcək ki, sonra minlərləsi tələb edə bilsinlər. İnanıram.

## C.BOREL: NAMİZƏD STATUSU ÜÇÜN GÜRCÜSTANDA HƏLƏ ÇOX İŞ GÖRÜLMƏLİDİR



Gürcüstan zəruri islahatları həyata keçirmək üçün yerdə qalan qısa vaxtdan istifadə etməlidir. Bunu Gürcüstanda səfərdə olan Avropa İttifaqının (Aİ) Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borel Aİ-nin Tbilisi ofisində keçirdiyi brifinqdə deyib.

O, qeyd edib ki, Gürcüstan Aİ üçün vacib tərəfdaşdır və hazırkı dövr Gürcüstanın Avropa gələcəyi üçün vacib andır.

"Çünki bir neçə həftəyə Aİ Gürcüstanın ittifaqa qəbulu yolunda atılacaq növbəti addımları nəzərdən keçirəcək. Aİ Gürcüstan üçün açıqdır və Gürcüstanı Aİ üzvlüyü yoluna dəstəyinə sadiqdir" – Borel bildirib.

Bununla belə Borel namizəd statusu üçün Gürcüstanda hələ çox iş görülməli olduğunu vurğulayıb:

"Mən eyni zamanda bildirməliyəm ki, Aİ-yə müraciət ciddi bir öhdəlikdir, namizəd statusu ciddi islahatlarla və Aİ dəyərlərinə hörmətlə qazanılmalıdır və səmimi olsaq hələ də çox böyük işlər görülməlidir".

Borel əlavə edib ki, Avropa Komissiyasının Gürcüstana təqdim etdiyi 12 tövsiyənin məqsədi Brüsseldə kimlərisə məmnun etmək yox, Gürcüstan vətəndaşlarının həyatını yaxşılaşdırmaqdır.

O, Aİ-nin Gürcüstanın ən böyük ikitərəfli yardım tədarükçüsü olduğunu, 2021-2024-cü illər ərzindəki yardımın həcminin 240 milyon avro olacağını qeyd edib.

## GÜRCÜSTAN HÖKUMƏTİ ÇİN VƏTƏNDAŞLARI ÜÇÜN VİZA REJİMİNİ LƏĞV EDİB

Gürcüstan hökuməti Çin vətəndaşları üçün viza rejimini ləğv edib. Bu barədə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili məlumat verib.

Baş nazirin sözlərinə görə, bu qərar Çindən Gürcüstana daha çox turistin gəlməsi və iqtisadi sərmayələrin artması məqsədilə qəbul edilib.

Baş nazir deyib ki, Gürcüstana daha çox turistin gəlməsi ölkə üçün vacib və həvəsləndirici olacaq. Çinli turistlər Avropada, Amerikada və dünyanın hər yerində ən arzuolunan turistlərdən hesab edilirlər. İki ölkə arasında birbaşa aviareyslər artıq mövcuddur.

O əlavə edib ki, Gürcüstan ötən il turizmdən 3 milyard 500 min dollar gəlir əldə edib, bu gəlirin cari ildə daha da artması gözlənilir.

"Çinə səfərimiz zamanı bu ölkənin Baş naziri ilə turizm və uçuşlarla bağlı geniş söhbətim olub, müvafiq razılaşma əldə edilib. Bu qərarımız da həmin razılaşmanın davamıdır", – deyə Qaribaşvili vurğulayıb.

Qeyd olunub ki, Çin vətəndaşları Gürcüstana səfər etdikləri zaman 30 gün müddətində vizasız qala biləcəklər.

## BÖYÜK BRİTANİYA GÜRCÜSTAN VƏTƏNDAŞLARINA TRANZİT VİZASI TƏTBİQ EDİB




Böyük Britaniya öz ərazisindən tranzit kimi istifadə edəcək Gürcüstan və Rusiya vətəndaşlarından tranzit vizası tələb edəcək.

Qərar Britaniya hökumətinin saytında dərc edilib. Bildirilib ki, sentyabrın 8-də Birləşmiş Krallığın sərnişin vizası qaydalarına edilmiş düzəlişə əsasən Gürcüstan və Rusiya vətəndaşlarından tranzit vizası tələb olunan ölkələr siyahısına əlavə edilib.

Qeyd olunub ki, adətən bu cür hüquqi alətlər parlamentə təqdim edildikdən 21 gün sonra qüvvəyə minir, lakin sığınacaq üçün müraciət edən gürcü və rusların sayında nəzərəçarpan artım olması narahatlığı ilə əlaqədar cəmi 1 gün sonra qüvvəyə minib.

"Newland Chase" viza xidmətləri şirkətinin məlumatına görə, 2018-ci ildən bəri Gürcüstan və Rusiya vətəndaşları Böyük Britaniyanın tranzit qaydalarını sığınacaq əldə etmək məqsədilə ən çox istismar edən əcnəbilər arasındadır. Britaniya Daxili İşlər Nazirliyinin məlumatına görə, bu iki ölkənin vətəndaşlarından tranzit vizasının tələb edilməsi tranzit məqsədilə Böyük Britaniyaya gələn və sonradan sığınacaq istəyənlərin qarşısını alacaq.

# İXTİSASIN QADIN CİNSİ



Avqust ayının əvvəlində qəbul imtahanının nəticələri açıqlanmış, kimin neçə bal yığdığı bəlli olmuşdu. Sentyabr ayı da kimin hansı universitetə qəbul olduğu xəbəri ilə gəlib həyatımızın abituriyent səhifəsində olan hekayəyə son nöqtəni qoyub tələbə həyatımızın ilk səhifəsini açmışdı. Universitet hər birimiz üçün yeni başlanğıc, gələcəyə atdığımız ən önəmli addımlardan biri deməkdir. Hər birimizin qədəmləri mübarək olsun!

İndi isə qədəm qoyaq yazımıza. Deməli, universitetə qəbul olduqdan sonra tanıyan və bundan xəbərdar olan hamı əvvəlcə başlayır sizi bu münasibətlə təbrik etməyə, sonra da klassik olan o sualı verməyə ki, “de görüm, hansı peşəni seçmək istəyirsən?”

“Jurnalist olmaq istəyirəm” – bunu dilə gətirəndə üzlərindəki ifadə bir balaca dəyişir. Başlayırlar seçiminizi şərhləndirməyə: “A bala, yenə də özün bilərsən, amma başqa peşə seçsən daha yaxşı olar. Ağlın Azərbaycana getməsin, burada jurnalistmi var. Ağıllı qızsan, get müəllimlik oxu, həkimlik oxu, nə bilim, əczaçı ol. Amma ən yaxşısı müəllimlikdir. Səhər saat doqquzda gedirsən, günorta saat ikidə evdəsən. Jurnalist nədir? Bütün günü əlində mikrafon o küçə mənim, bu küçə sənin deyib xəbər dalınca gəzir. Daha kim jurnalistika oxuyur ki?”

Mən başa düşmürəm, jurnalist deyəndə niyə bizim millətin gözünün qarşısında əlində mikrafon tutub müsahibə götürən bir insan silueti canlanır? Məgər, tək odur jurnalist? Bəs onda qəzet, televiziya, radio, günümüzün ən məşhuru olan internet vasitəsilə məlumatları bizə çatdıranlar kimlərdir? Yoxsa xəbərləri də bizə leyləklər gətirir? Özü də Gürcüstanda Azərbaycandan fərqli olaraq jurnalist yox imiş. Hanı bəs buranın jurnalistləri?

Doğrudan da bizim millətin içində dar düşüncəli insanlar çoxdur. Jurnalistika insanlar arasında məlumatın yayıldığı ilk zamanlarda yaranıb, yəni tarixi qədimdir. Özü də günümüzdə aktualdır. Bəlkə əvvəki qədər televizor izləyən, radio dinləyən yoxdur, amma yenə də internet vasitəsilə hər hadisədən xəbərdar oluruq. Müxtəlif xəbər portallarından hər saat ölkədə baş verənləri oxuyuruq. Bəs bu məlumatları ora kim yerləşdirir? Azərbaycandakı jurnalistlər? O qədər türk və Azərbaycan kanallarında “axtarış” və “izdivac” verilişlərinə baxırlar ki, heç öz yerli kanallarımızdan, verilişlərimizdən xəbərləri yoxdur. Sonra da deyirlər jurnalist yoxdur. Lap cəhənnəm, deyək ki, burada jurnalistika o qədər inkişaf etməyib, tutaq ki, jurnalist də yoxdur. Onda qoyun kimsə oxusun olsun. Bu cür davam edəsi ki deyil. Olanı hamı seçə bilər. Qoyun olmayan da cücərsin, zəif də inkişaf etsin. Niyə insanın qabağına divar hörüb onu həvəsdən salırsınız? Az qala geyimin belə qadın və kişi cinsinə aid olduğunun önəmli olmadığı bir zəmanədə peşəni kişi və qadın cinsinə ayırırsınız.

Həm də bu insanlar özlərindən “ağıllı qız norması” çıxarıblar. Əgər müəllim, həkim, əczaçı kimi peşələri oxuyub işləyirsənsə deməli ağıllı qızsan. Demirəm bu peşələri seçməyək, ya da söhbət jurnalist olmaq deyil. Məsələ düşüncə darlığıdır. Qız o peşəni seçməz, oğlan orada işləməz, filan peşənin əməkhaqqı azdır, o çətindir, incəsənəti seçsən ac qalarsan, nə bilim nə...

Bu dünya böyük, bizim millətin düşüncəsi isə dardır. Dindirsən hamısı xoşbəxt gənclərdən və aydın sabahlardan danışacaqlar, gənclər bizim gələcəyimizdir deyəcəklər. Amma təəssüf ki, gəncin içindəki həvəsi, aydın sabahın ümid işığını söndürənlər də məhz onlardır. Yaxşısı budur ki, peşə seçəndə heç kimin fikrinə qulaq asmayaq. Onsuz da polisə “it” deyə müraciət edən şəxslərin fikrindən bizə fayda gəlməz.

**Çiyalə Osmanova**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# MÜSİBƏTDƏN İBRƏT ALMAQ



**Hacı Bəkiroğlu**
hacihaciyev@hotmail.com

Lüğətdə “çətinlik”, “fəlakət”, “anidən gələn bəla” mənasını daşıyan müsibət insanın başına gələn hər cür pis vəziyyəti ifadə etməkdədir. Həmçinin Quranda da “müsibət” sözünün “pis vəziyyət”ləri ifadə etmək üçün istifadə edildiyini görürük. Müsibətin termin mənası isə “insanın canını sıxan və kədər verən şey”, “insanın başına gələn bəla, qəm, kədər, darlıq, çətinlik, məşəqqət” və “insanın başına qəflətən gələn fəlakət, çətinlik”dir. Dini terminologiyada isə “insanın, ümumiyyətlə, öz iradəsi xaricində və gözləmədiyi şəkildə qarşılaşdığı vəziyyət” mənasında istifadə edilməkdədir. Müsibət mənasını ifadə edən digər bir anlayış isə “bəla”dır. Bəla sözü Allahın insanları sınamaq üçün verdiyi maddi və mənəvi çətinlik, dərd və qəm kimi mənalara gəlir. Termin olaraq isə bir növ imtahan vəsiləsi olduğu, imtahanın isə xeyir və şər şəklində ola biləcəyi nəzərdə tutulmaqdadır.

Quran ayələri çərçivəsində mövzuya baxıldığında, insanın başına gələn müsibətlərin iki əsas səbəbi olduğunu görərik. Bunlardan birincisi, insanın öz davranışlarının nəticəsidir. Yəni ki, pis davranışlarının səbəbi olaraq başına bəla və müsibət gəlməkdədir, çətinliklərə məruz qalmaqdadır. Zülm, qəza, ölüm, xəstəlik, iflas və s. kimi hadisələri buna nümunə olaraq gətirə bilərik. İkincisi, insanın əlində olmadan məruz qaldığı müsibətlərdir ki, buna nümunə olaraq quraqlıq, zəlzələ, qıtlıq, təbii fəlakətlər və s. kimi hadisələri göstərə bilərik.

“Bəqərə” surəsinin 155-157-ci ayələrində Allah *“Şübhəsiz, Biz sizi bir az qorxu, bir az aclıq, bir az mal-dövlət, can və məhsuldan əskiltməklə sınayarıq. Səbir edənlərə müjdə ver! Onlara (səbir edənlərə) bir müsibət üz verdiyi zaman: “Biz Allaha məxsusuq və Ona qayıdacağıq!” – deyərlər. Onları Rəbbi tərəfindən məğfirət və rəhmət gözləyir. Məhz onlar doğru yolda olanlardır”* deyə buyurur. Buradan da göründüyü kimi, bəzi çətinliklər insanın sınanması üçün Allah tərəfindən göndərilmişdir. İnsanlardan buna səbir edib dözənlərin də mükafatlandırılacağı bildirilir.

Digər bir tərəfdən də, yuxarıda da vurğuladığımız kimi, insanların əməllərinin qarşılığı olaraq da müsibətlər baş verə bilir. Belə bir hekayə anladılır ki, bir zamanlar Allah mələklərə bir cəmiyyəti azğınlaşdıqları səbəbi ilə müsibətlə, fəlakətlə cəzalandırmalarını əmr edir. Mələklər isə orada abid və zahid olan bir nəfərin də yaşadığını söyləyirlər. Allah isə elə ilk olaraq o şəxsin həlak edilməsini buyurur. Onun sadəcə özünə faydasının olmasını, digər insanların düzəlməsi üçün, doğru yola gəlmələri üçün heç bir fəaliyyətinin olmadığını bildirir. Hekayədən də anlaşılır ki, fəlakətin və müsibətin üz verməməsi üçün insanlar bir-birindən məsul olmalıdırlar. Bir qismi yanlış yola yönəldiklərində, bir qismi də onları bu yanlışlarından dönmələri üçün xəbərdar etməli, çəkindirməlidirlər.

Bu gün cəmiyyətimizdə baş verən hadisələr qarşısında bizlər sadəcə bir tamaşaçı rolunu oynayırıq. Sonra da üzərimizə yağan bəlalar, müsibətlər qarşısında yaxamızı cıraraq ağlayır, fəğan edirik. Ən böyük yanlışımızı belə qəbullanmayıb, hətta bu olanlarda Allahı günahkar bilib ona qarşı üsyana qalxırıq. Halbuki Allah bizi kiçik müsibətlərlə yolumuza qayıtmaq üçün xəbərdar edir.

Baş verən qəzalar, gənckən yox olan həyatlar bizə öyüd, nəsihət olmur, yenə də sükan arxasına keçəndə uçacaqmış kimi avtomobil idarə edirik. Əlimizdə olanlarla yetinməyib yetimin, kimsəsizin malına göz dikirik. Bəs bunun bir cavabı olmayacaqmı deyə düşünmürük. Bu hadisələri görənlər də heç bir şey olmamış kimi sükunətlərini qoruyurlar və nəticədə də olanlar olur.

Olanlardan ibrət almağı, müsibətlərdən uzaq olmağı Allah bizlərə nəsib eləsin.

## DÖVLƏT TƏRƏFİNDƏN TƏHSİLİ MALİYYƏLƏŞDİRİLƏCƏK TƏLƏBƏLƏRİN 14 KATEQORİYASI – NAZİRLİK ƏRİZƏLƏRİN QƏBULUNA BAŞLAYIB



Gürcüstanın Təhsil və Elm Nazirliyi tələbələrə dəstək məqsədilə sentyabrın 7-dən sosial proqram çərçivəsində ərizələrin qəbuluna başlayıb.

Ərizələr bakalavr, müəllim hazırlığı üzrə inteqrə edilmiş bakalavr-magistratura, baytarlıq üzrə magistratura, ali təhsilli tibb/stomatologiya üzrə akreditasiyadan keçmiş təhsil proqramlarına qəbul olunacaq.

Ərizələr 2023-cü il sentyabrın 7-dən sentyabrın 26-na kimi yalnız elektron qeydiyyat əsasında qəbul olunacaq. Qeydiyyat üçün "**socreg.mes.gov.ge**" veb-səhifəyə daxil olmaq lazımdır.

Proqram haqqında ətraflı məlumatı Gürcüstanın Təhsil və Elm Nazirliyinin rəsmi veb-səhifəsindən (www.mes.gov.ge) əldə edə bilərsiniz.

Qeyd etmək lazımdır ki, 2023-cü ildə sosial proqram çərçivəsində fəaliyyət göstərən 14 kateqoriyaya daha iki kateqoriya əlavə edilib – "Gürcüstanın Müdafiə Nazirliyi sistemində vəzifə borcunu yerinə yetirən zaman həlak olmuş hərbçilərin övladları" və "Gürcüstanın ümumtəhsil müəssisələrində təhsil aldığı dövrdə Gürcüstanın Təhsil və Elm Nazirliyi tərəfindən həyata keçirilən "İnklüziv təhsilə dəstək" proqramının, "Sosial inklüziya ilə təhsil almağın ikinci imkanı" alt-proqramının benefisiarları olan şəxslər, misal üşün qaraçı yeniyetmələr".

***Gürcüstanın Təhsil və Elm Nazirliyi ötən illərdə qüvvədə olan sonrakı sosial kateqoriyaların maliyyələşdirilməsinə davam edir:***

- Dağlıq kənd statusu olan məktəblərin məzunları;
- İşğal edilmiş ərazilərdən olan tələbələr;
- Ərazi bütövlüyü uğrunda həlak olanların övladları, ağır dərəcədə fiziki imkanları məhdud olan veteranlar və ya onların övladları;
- Valideynlərini itirmiş tələbələr;
- Çoxuşaqlı (4 və ya daha çox) ailələrin üzvləri;
- Aztəminatlı tələbələr (ailəsinin reytinq balı 70000 və daha aşağı olan);
- Dövlət himayəsi altında olan tələbələr;
- Azərbaycandilli məktəblərin məzunları;
- Ermənidilli məktəblərin məzunları;
- Repatriasiya edilmiş (vaxtilə yaşayış yerindən zorla çıxarılmış, deportasiya olunmuş şəxslərin və ya milli-etnik qrupların yenidən həmin məkana qaytarılması) tələbələr;
- İşğal edilmiş ərazilərlə sərhədyanı kənd məktəblərinin məzunları;
- Fiziki imkanları məhdud tələbələr;
- Autizm spektri pozulmuş şəxslər;
- Beynəlxalq sülh və təhlükəsizliyin qorunması və bərpası əməliyyatlarında, yaxud başqa növ sülh fəaliyyətlərinin həyata keçirilməsi zamanı və ya bu missiyalarda sağlamlığına ziyan dəymə nəticəsində dünyasını dəyişmiş Gürcüstanın Müdafiə Nazirliyinin hərbi xidmətçilərinin övladları, sülh fəaliyyətlərini həyata keçirmək nəticəsində kəskin/ağır dərəcəli fiziki imkanları məhdud şəxslər və ya onların övladları.

## 10 MİN LARİ VERİLƏCƏK ƏMƏKDAR MÜƏLLİMLƏR NECƏ SEÇİLƏCƏK?



Bu ildən etibarən oktyabrın 27-i Gürcüstanda Milli Müəllim Günü qeyd olunacaq. Təhsil nazirinin qərarına əsasən, müəllimlər haqqında məlumatların toplanmasına artıq başlanılıb və xüsusi olaraq yaradılmış komissiya müəllimlər arasından qalibləri müəyyən edəcək. Onlara təmtəraqlı tədbirdə 10 000 lari və xüsusi döş nişanı təqdim olunacaq.

Qalib müəllimin seçilməsində əsas meyar kimi müəllimin məktəb, şagirdlər, icma və ictimaiyyət qarşısında xüsusi xidməti nəzərə alınacaq.

Ancaq maraqlıdır, həmin əməkdar müəllimləri kim seçəcək və ya onlar haqqında nazirliyə kim məlumat verəcək?

Məsələ ilə əlaqədar Gürcüstanın təhsil və elm nazirinin müavini Tamar Maxaraşvili bildirib ki, ***"məktəblər pedaqoqlar haqqında məlumatları yerli təhsil resurs mərkəzlərinə verə bilərlər, mərkəz həmin sənədləri nazirliyə çatdıracaq və yalnız bundan sonra komissiya qalib müəllimləri müəyyən edəcək".***

Həmçinin məlumdur ki, nəzərdə tutulmuş 10 min lari bütün qaliblər arasında bölünməyəcək, hər bir pedaqoq bu məbləği əldə edəcək.

## BAŞ NAZİR: 5000 TƏLƏBƏ 300 LARİ TƏQAÜD ALACAQ




2023-2024-cü tədris ilinin payız rübündən təqaüd alan tələbələrin sayı və dövlət təqaüdü ikiqat artırılır. Belə ki, 5000 tələbənin hər biri 300 lari dəyərində təqaüd alacaq. Bu barədə Baş nazir İrakli Qaribaşvili sentyabrın 11-i baş tutan hökumətin iclasında bildirib.

***"Bizim ağıllı, fərqlənən, yüksək akademik iştirakı olan tələbələrimiz var və onlara tələbə təqaüdü ilə kömək etmək, qiymətləndirmək, onları həvəsləndirmək istəyirik. Bu gün qüvvədə olan proqram təxminən 2500 tələbəni və hər birinə 150 lari təqaüdü nəzərdə tutur. Biz bu təqüdü ikiqat artırırıq və bu gündən hər tələbəyə 300 lari təqaüd veriləcək. Fərqlənən 5000 tələbə təqaüd alacaq. Bu, əlbəttə, simvolik ola bilər, amma bizim tərəfimizdən jestdir, tələbələrimizin qiymətləndirilməsidir. Hazırlanacaq meyarlar təhsil nazirinin sərəncamı ilə təsdiqlənəcək",*** – deyə Baş nazir bildirib.

Gürcüstanın Təhsil və Elm Nazirliyi də təqaüd almaq prosedurları haqqında açıqlama yayımlayıb:

*"Yenilənmiş proqram çərçivəsində tədris ilinin 10 ayı ərzində, oktyabrdan iyula qədər dövlət ali təhsil müəssisələrinin uğurlu tələbələri hər ay 150 lari əvəzinə 300 lari təqaüd alacaqlar.*

*İndiyə qədər təxminən 2500 tələbə təqaüd alırdısa, yeni tədris ilindən 5000 uğurlu tələbə artırılmış təqaüd alacaq.*

*Yeniliyə əsasən, universitet təqüd alacaq tələbələrin meyarlarını seçməyəcək və ali təhsil müəssisələri təqaüd alanların seçimi üçün nəzərdə tutulmuş ümumi meyarlarla hərəkət edəcəklər. Həmin meyarlar Gürcüstanın təhsil və elm nazirinin sərəncamı ilə təsdiqlənəcək.*

*Yeni seçim meyarları akademik nailiyyətlərlə yanaşı müxtəlif təhsil aktivliklərini, eləcə də universitet, intellektual, elmi, yaradıcı-mədəni, idman tədbirlərini, imitasiya edilmiş məhkəmə proseslərində iştirakı əhatə edir. Həmçinin meyarlarda aztəminatlı şəxs (ailənin reytinq balı 70 000 və az), fiziki imkanları məhdud və ya xüsusi təhsilə ehtiyacı olan şəxs, dağlıq məntəqədə daimi yaşayan şəxs, çoxuşaqlı ailə üzvü olmaq (4 və daha çox uşaq) və s. kimi sosial faktorlar da nəzərdə tutulub.*

*Gürcüstanın təhsil və elm naziri hökumətin iclası başa çatdıqdan sonra əlavə açıqlama zamanı bildirib ki, təqaüd indiyə qədər də dövlət universitetlərinin tələbələrinə aid idi və belə də davam edəcək:*

*"Nazirlik sərəncam yayımlayacaq. Sərəncamda tələbənin neçə balı olan zaman təqaüd alacağı ilə bağlı bal şkalası da qeyd olunacaq. Təbii ki, fərqlənən tələbələr, sonra isə aşağı şkalada olan ən yaxşı 5000 tələbə nəzərdə tutulub".*

## 2023-CÜ İLİN VAHİD MİLLİ İMTAHANLARININ NƏTİCƏLƏRİ YAYIMLANIB



2023-cü ildə vahid milli imtahanlara qeydiyyatdan keçmiş abituriyentlərin 77 %-i, yəni 34 843 abituriyent tələbə statusu qazanıb. Ötən illə müqayisədə qəbul olunan tələbələrin sayı 8,5 faiz (2 743 tələbə) artıb.

6 450-dən çox abituriyent dövlət maliyyələşdirməsi əldə edib. 1000-dən artıq aplikant 100 %, 1 450-dən artıq aplikant 70 %, 4 080-dən artıq abituriyent isə 50 % qrant əldə edib.

5 500-dən çox aplikant dövlət tərəfindən maliyyələşdirilən proqramlara qəbul olub. 1 550-yə yaxın aplikant gürcü dili üzrə hazırlıq proqramında təhsilinə davam edəcək. Ümumilikdə 12 000-dən artıq aplikant maliyyələşdirmə qazanıb.

Qeyd edək ki, 23 440 nəticədən 4 202 nəticə şikayət olunub. Apelyasiyadan sonra 1 498 nəticənin ilkin qiymətləndirilməsi dəyişdirilib, 1 473 nəticədə bal artırılıb, 25 nəticədə isə bal azaldılıb.

Qeyd olunmalıdır ki, təbiət fənlərində minimal keçidi aşa bilməyən abituriyentlərin faiz göstəricisi yenə də yüksək olaraq qalmaqdadır.

Aplikantların 30,95 %-i fizika, 19,53 %-i kimya, 14,71 %-i isə biologiya imtahanından kəsilib.

Qeyri-gürcüdilli abituriyentlərin imtahandan kəsilmə göstəricisi də yüksəkdir: ümumi qabiliyyət imtahanında iştirak edən 2 573 aplikantdan (Azərbaycan dilində) 35,6 %-i; 602 aplikantdan (erməni dilində) 24,25 %-i imtahandan kəsilib.

Ən yüksək bal toplanan fənlər isə bunlardır: ingilis dili fənnindən 649 abituriyent, gürcü dili və ədəbiyyatı fənnindən 75 abituriyent, riyaziyyat fənnindən isə 44 abituriyent yüksək bal toplayıb.

Xatırladaq ki, 2019-cu ildə 28 740, 2020-ci ildə 29 614, 2021-ci ildə 29 362, 2022-ci ildə isə 32 100 nəfər abituriyent tələbə adını qazanıb.

*Səhifədəki məlumatlar "edu.aris.ge" və "etaloni.ge" saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# QARĞANIN İŞLƏKLƏRİ



Şəhərin alaqaranlığında reyhanmərzələrə su açmışam. Hava yenicə ağarışdanırdı.

Baxdım ki, bir qarğa dimdiyində böyük çörək parçası arxın üstündə şəstlə dayanıb ətrafı gözdən keçirir. Məndən ona xətər dəyməyəcəyinə əmin olduqdan sonra kamali-ədəblə çörəyini kiçik su arxına buraxıb o tərəfə, bu tərəfə çevirərək islatdı. Sonra da islanmış çörəkdən kiçik parçalar qopardıb iştahla yeməyə başladı. Əppəyinin ucunu tapmaq buna deyirlər yəqin.

Çöllü, çölləmələr – əkinçilər, suçular, sığırçılar bilməmiş deyillər, başlarına gəlmiş olmalıdır. Çöldə iş görənlər naharlanmaq üçün evdən özləri ilə götürdükləri yemək çantasını, bağlamanı qarğanın caynağının, dimdiyinin çatmadığı bir yerdə gizləməsələr yerini görərlər. Qarğa çantanın zəncirbəndini, bağlamanın düyününü elə ustalıqla açar, içindəki dişə dəyən hər şeyi də çinədanına ötürər, yeməyinin yoxa çıxdığını görən çöl adamı da qalar mat-məəttəl. Bəzən kiminsə zarafat etdiyini güman edib, fikri yüz yerə gedər. Yazıq nə etsin? İtik bir, güman min. Qarğa hamıdan yediyi kimi, bir əppək para da ondan yeyər, o da quru süfrəyə dua etməli olar.

Qarğanın su arxında əppəyini suya batırıb yeməsi əhvalatı məni heyrətləndirmədi desəm yalan olar. Və mənim bu heyrətlənməyim də belə bir yazının ortaya çıxmasına vəsilə oldu. Bunu da elə-belə yazdım.

120 növü olan qarğalar haqqında dildə-ağızda dolaşan onlarla yanlış təsəvvür var. Onlardan biri, bəlkə də birincisi qarğaların 300 il yaşamaları ilə bağlıdır. Əslində bu quşlar cəmi 10-15 il, bəzi növləri isə 30-40 il yaşaya bilirlər. 10-15 il hara, 30-40 il hara, 300 il hara? Çox yaşamaq istəyən birinə: "qarğa kimi üç yüz ilmi yaşayacaqsan?" – deyirlər. Biçarə qarğanın adı çıxıb!..

Söhbətə körpü salmaq üçün deyim ki, başımızın üstündə – səmada Şir bürcü, Böyük Ayı bürcü olduğu kimi Qarğa bürcü də var.

Qarğa deyib, quş deyib keçməyək. Qarğa çox ağıllı bir quşdur. Bədəninə nisbətən beyni çox böyükdür. Sahənin biliciləri yetkin qarğanın yeddi yaşlı uşaq ağlına sahib olduğunu söyləyirlər. Yaddaşı yaxşıdır. Gördüyü hər şeyi yadında saxlaya bilir. Yeni öyrəndikləri bacarıqları nəsildən nəslə ötürür. Bütün bunlar qarğanın çoxbilmişlik statusu qazanmasına səbəb olub.

Qarğa yuvası bizə görə pintilik rəmzidir. Amma qarğa pinti deyil. Bəlkə də vasvasılığına görə təmizlik simvolu da sayıla bilər. Əldə etdiyi qidanı yumadan yeməz.

Sürü halında yaşasalar da, hər bir cütlük ayrıca ailə sayılır, hər bir cütlüyün ayrıca ailəsi var. Qarğalar monoqamdırlar, sadə dillə desək, təknikahlıdırlar. Xanım yumurtaya yatdığı dövrdə bəy onu yemləməklə də məşğul olur. İraq feministlərin qulaqlarından. Qarğa ailəsini qoruyandır, onu ölümünə müdafiə edəndir. Yuvasına, balasına toxunan insanların, heyvanların başına od ələyər. Sürü ilə ailə şərəfini tapdamış canlıya hücum edərlər. Bəzən günahsız olanlar da belə hücuma məruz qala bilərlər. Qonşu uşaqlardan biri bilərəkdənmi, yoxsa başqa səbəbdənmi qarğanın balasını öldürdüyü il bizim məhəllə içi mən qarışıq qarğaların belə hücumlarından bəndi-fərman olmuşdu. O üzdən də qarğa ilə işiniz olmasın, a qarğa, məndə qoz var deyib qaşınmayan yerdən qan çıxarmayın. Bunu da qafanızın bir küncünə yazın.

Bir qarğa ölərkən yüzlərlə həmcinsinin onun ətrafına toplaşması qarğaların cənazə mərasimi keçirməsi mənası verirmi? Bax, bunu mən də deyə bilməyəcəm. O üzdən başınızın çarəsinə baxın.

Biz səsli-küylü, tünlük yerə "qarğa bazarı" deyirik. Çox danışan adamların yığnağına "qarğa kimi qarıldaşırlar" bənzətməsi qoşuruq. Həyasız adamlara, toplumlara "qarğa çartdadan" deyirik. "Sizin aranızda ala qarğa bala çıxarmaz" dediyimiz adamlara qarğadan həyasız, qarğadan pis olduqlarını bildirmək istəyib qarğanı həyasızlığın rəmzinə çeviririk. Amma əslində qarğa da bütün canlılar kimi, mühitlə, – biz insanlar da o mühitin içərisindəyik, – yaşamaq uğrunda mübarizə aparır. Biz də adını qoyuruq həyasızlıq. Hətta xalq inamlarımız bir az da dərinə gedir: qarğa qarıldayanda qar istəyir. Yox bir daha nə!

Qarğalar dəstə şəklində yaşayırlar. Onların uçarkən, budaqlara qonarkən qarıldaşdıqlarını hər zaman müşahidə etmək olar. Əslində qarıldaşmaqla öz aralarında əlaqə yaradır, inanın ki, biz anlamasaq da söhbət edirlər.

"Qarğa dili" deyilən bir ünsiyyət vasitəsi də var ki, bunun qarğalarla əlaqəsi yoxdur. Müəyyən qrup adamlar ətrafdakıların anlamaması, müəyyən bilgini, sirri gizli saxlamaq üçün bu üsluba baş vurublar.

Qarğa deyib addamayaq.

"Qarğa və tülkü" təmsilindən də xəbəriniz var. Düzdür, təmsildə tülkü qarğanı aldadıb pendirini ələ keçirir. Amma qarğa nə asan qarğadır ki, ağzındakı yemi tülküyə verə. Yəqin ki, pendir heç yeməyə yararlı bir şey deyilmiş. Qarğa onu tülküyə verərək canını qurtarıb.

**Afiq MUXTAROĞLU**

# AĞ ÖLÜM



Yəqin ki, hər birimiz ağ ölümün nə olduğunu bilirik. Cəmiyyətdə ağ ölüm kimi qəbul edilən, əhalinin, daha doğrusu, gənc nəslin bir qismində sonsuz maraq doğuran, aludəçilik yaradan, müalicəsi olduqca çətin və uzun müddət tələb edən asılılıq.

"Narkomaniya" yunan sözü olub "narko" donub qalmaq, "maniya" psixi pozğunluq deməkdir. Narkotikdən asılılıq ağır xəstəliyə – narkomaniyaya gətirib çıxarır. Narkotik maddələr insan sağlamlığına ciddi ziyan vurur, fiziki baxımdan tükəndirir, bədənin çəkisini sürətlə azaldır, bir sözlə, insanda sonsuz problemlər yaradır. Ümumiyyətlə, bu gün narkomaniya ən ağrılı problemlərdən, qorxulu vərdişlərdən birinə çevrilmişdir. Bütün dünyada bununla bağlı mübarizə getsə də, insanlıq üçün böyük bəla olan narkomaniya hələ də yayılmağa davam edir. Haqqında saysız hesabsız filmlər çəkilir, video çarxlar hazırlanır, yazılar, kitablar yazılır, ancaq hələ də narkotik istifadəçilərinin sayı azalmayıb.

Hazırda dünyada iki milyondan artıq narkoman var ki, onların bir qismini kişilər və qadınlar, digər qismini isə gənclər və uşaqlar təşkil edir. Narkotik maddələrin gənc nəsillər arasında daha tez yayılması təhlükəsi olduğundan dünyanın bir çox yerlərində, ən çox təhsil olacaqlarında, məktəblərdə, gənclərin çox olduğu digər yerlərdə "Narkotiksiz gələcək" başlığı altında proqramlar hazırlanır. Heç bir gənc deyə bilməz ki, mənə məktəb dərslərində narkomaniyayla bağlı heç bir məlumat verilməyib. 12 illik məktəb həyatımda, demək olar ki, hər ilin dərsliyində zərərli vərdişlər, narkomaniya, aludəçiliklə bağlı dərslərlə qarşılaşmışam. QİÇS haqqında soruşanda müəllim dəhşətli, müalicəsi çətin bir xəstəlik növü olduğunu, narkomanlar içərisində ən geniş yayılmış xəstəlik olduğunu demişdi.

Narkomaniya bəlası digər ölkələrdə olduğu kimi Gürcüstanda da var. Ölkəmizdə istifadəsi qadağan olunmayıb, ancaq alışı-satışı və əkib-becərilməsi qadağan edilib. Buna baxmayaraq, yabanı halda bitən narkotik tərkibli bitkilər ölkənin bəzi bölgələrində var.

Alışı və satışının qadağan olunması bəzi insanlara təsir etmir, etsəydi hər gün, hər açılan səhər narkomaniyayla bağlı xəbər almazdıq. Aparılan müayinələrdə min nəfərdən səkkiz yüzündə bu diaqnoz qoyulmazdı. Artıq dəfələrlə öz yaxın çevrəmizdə ölən insanların o bəladan öldüyünü eşitmişəm. Hətta bir dəfə dərsə gedərkən cəsədin başına toplaşan insanları görmüşdük. Çox istifadədən artıq orqanizm götürməyib adama son nəfəsini verdirmişdi.

Bu günlərdə eyni bəla yenə bir canı aldı. Hələ öz həyatının ilk addımlarını atan bir gənc dostlarının sözüylə, bir anlıq həvəslə o həzzi yaşamaq üçün öz canına qıydı. Hər kəs burada heç nə olmadığını, kiçik şəhər olduğunu deyir, kimsə inanmır ki, yaşadığımız həmin bu kiçik şəhərdə də narkotik istifadə edənlər çoxdur. Bu bəlanın aludəçisi olduqlarını övladlarına qondurmayan, həyat yoldaşlarına yaraşdırmayan qadınlarımız, analarımız var ki, indi o analardan biri övladını yox, onun şəklini qucaqlayır.

Maddə aludəçiliyi doğrudan da əsrin bəlasına çevrilib. Narkomaniya milyonlarla insanın həyatına son qoyan dəhşətli müharibədir. Bundan istifadə edənlər də bu müharibənin əsir düşənləridir. Niyə axı, bir insan göz görə-görə öz həyatını sonsuz bir qəfəsə həbs etsin, ani bir həzz üçün öz azadlığını, öz canını qurban versin...

Həyat çox gözəldir, özünüzə qıymayın, həyatınızı bir anlıq həvəs üçün soldurmayın.

**Aytən Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin birinci kurs tələbəsi*

# HƏSRƏTİN KƏSDİYİ ÖMÜR



Sosial mediada bir çoxumuzun qarşılaşdığı məşhur bir ifadə var: 2013-cü ildə Moskvada keçirilən beynəlxalq konfransda sinxron tərcümə qulaqcığından imtina edən alim – Kərəm Məmmədli...

Bəli, bu yazılan şişirdilmiş deyil, həqiqətən də o ucalıqda olan bir ŞƏXSİYYƏT idi Kərəm Məmmədli.

Keçmişlə maraqlanan, tarixə həvəsi olan insanlar Kərəm müəllimin fikir və düşüncələrini, onun türklük, soyumuz, keçmişimiz barədə yazdıqlarını istər məqalələrindən, istərsə də sosial şəbəkədə paylaşdıqlarından bilirlər.

Yazımda tarixi bizlərə sevdirərək özü tarixə çevrilən, hər kəsin tanıdığı Kərəmi deyil, oğul, ata, baba, eloğlu olan Kərəm haqqında yazmaq istədim.

***İlk tanışlıq***

1997-ci ildə Bakı Dövlət Universitetində yay sessiyası idi. İmtahan yorğunluğu, gecə yuxusuzluğu və həyəcanı geridə qoyaraq universitetin həyətindəki sıralı ağacların kölgəsindəki açıq kafedə oturmuşduq. Tələbə dostlarımızdan biri söylədi ki, bu gün Tarix fakültəsində Kərəm müəllimin "Türklüyün əsasları" adında maraqlı mühazirəsi olacaq. Müəllim mühazirəni hər kəs üçün açıq elan edib, kim istəsə gedə bilər. Biologiya sahəsində oxusaq da, yorğun və yuxusuz olmağımıza baxmayaraq intellektual və vətənpərvər gənclər olaraq bir fincan qəhvə içərək mühazirəni dinləməyə getdik. İki saatdan çox davam edən mühazirədə eşitmədiyimiz, oxumadığımız, bəlkə də hələ ilk dinləyicisi bu auditoriyada olan yeni araşdırma və təhlilləri dinlədik. Hər nə qədər yorğun olsam da, təhlilləri böyük acgözlüklə dinlədim. Günü bu gün də həmin mühazirə otağı və Kərəm müəllimin həvəslə, qürurla, ürəklə danışığı gözlərimin önündədir.

Sonralar bir neçə dəfə bu cür açıq mühazirələrdə iştirak etdim. Mühazirələri bəzən auditoriyanın son partasında oturub dinləyən, sonra isə kölgə kimi yox olan mənim heç ağlıma da gəlməzdi ki, bu cür ləyaqətli, savadlı, yurdsevər bir insanın vaxtsız sonlanan ömür yolunun xatirəsi barədə yazacağam...

***Uşaqlığın keçdiyi yerdir Vətən***

Gəyliyən dağlar qoynunda axar-baxarlı bir kənd... Mənzərəsi qədər ziyalısı da nisbətdə çox olan bir el...

Azərbaycana bir neçə tanınmış şəxsiyyət verən kənddə Hətəm müəllim ilə Həmayil xanımın ailəsində 1965-ci ilin fevral ayının 22-də böyük sevinc var idi. Ailənin son beşiyi Kərəm dünyaya gəlmişdi.

Uşağın adı Həmayil xanıma röyasında söylənmişdi. Digər övladları böyüyüb evdən köçdüyü bir anda, yaşlı vaxtlarında Tanrı onlara yeni bir övlad vermişdi. Zarafatla Yanıq Kərəmimiz dedikləri bu övladı böyüdən valideynlər yenidən gəncləşmişdilər. Hamının sevimlisi olan Kərəm sonbeşik olduğu üçün ərköyün böyüsə də, dəcəllikləri qədər istedadlı olmağı da diqqətdən kənarda deyildi. Hətta tarix müəlliminə bir neçə sual verdikdən sonra Abbas müəllim dedi ki:

– Ay Kərəm, bəsdir, a bala, başını hər yerə soxma, yoxsa doğrudan da Yanıq Kərəm kimi yanarsan.

Zaman keçdi, özü də enişdən, yoxuşdan keçdi və gün gəldi bu cümlə öz yerinə düşdü.

Beləcə qayğısız, xoşbəxt, ailə sevgisi dolu uşaqlığını yaşayan Kərəm elm öyrənmək ardınca Azərbaycana, daha sonra isə Rusiyaya yola düşəcəkdi. Ucalığa gedən yol onu həyatı qədər sevdiyi anasından, anasını isə "ağzında dili kimi istədiyi" Kərəmindən uzaqlaşdırdı. Bu uzaqlığı ailə daha öncə altı dəfə yaşamışdı. Orta məktəbi bitirən övladları ali təhsil almaq üçün Bakıya üz tutmuş, sonra isə ailə həyatı qurmuşdular. Həyatın qanunu budur deyərdi Həmayil xanım...

Borçalı ənənələrinə görə, sonbeşik oğul yurdda qalmalı, ocağın işığını yandırmalıdır, Kərəm isə nəinki bu kəndə, Başkeçidə, Borçalıya, heç Azərbaycana sığmayan bir ümman hiss edirdi özündə. Hər nə qədər çılğın olsa da içindəki sual dolu dünyasıyla arzularının ardınca getməli idi.

***Niyyətdən mənzilə gedən yol***

Mühəndis atanın, müəllim ananın övladı kimi Başkeçidin Gəyliyən kəndində başladığı uşaqlığı... Hər dağda, daşda tarix axtardı, tarix gördü. Elə bu amalla Bakıya tarixçi olmağa gəldi. Sovet dövründə "Raykomluq fakültəsi" adlanan Azərbaycan Dövlət Universitetinin tarix fakültəsi ona neçə sualların cavabı, neçə yalanların həqiqəti, neçə sirlərin açarı olacaqdı...

Bir il sonra o zamankı Sovet qanununa uyğun olaraq hərbi xidmətə getdi. Sanki həyat onu daha da möhkəmlənməsi üçün keşməkeşli yollara saldı. Xidmətini dövrünün ən çətin, gedər-gəlməzi sayılan Əfqanıstan müharibəsində iştirak etdi. Burada iki il boyunca həyatın "ən"lərini görən Kərəm xidmətini başa vuraraq yarımçıq qalmış təhsilini davam etdirdi.

Qeyd: Kərəm müəllim Əfqanıstanda hərbi xidmət keçdiyi dövrü xatırlamaq istəməzdi. Orada aldığı iki qəlpə yarasını, xüsusi kitabçasını heç zaman istifadə etməz və oradan danışmazdı. Tariximizin utanc yeri deyərdi.




Borçalıda qapalı qalan tarixi, Əfqanıstanda yalnız haqq-nahaqq toqquşması 20 yaşlı gənc üçün böyük bir motivasiya idi. Tarixçi olmaq az idi. Haradan başlayır Vətən? O qaranlıqları işıqlandırmaq lazım idi. Tarixin sükutla keçdiyi məqamların səsi çıxmalı idi. Buna səbir, savad, dəyanət lazım idi. Bunları özündə cəmləşdirib işə başlamlı idi.

Təhsilini başa vurdu. Ondakı istedadı yaxşı ki, qiymətləndirənlər var idi. Kərəm müəllim artıq Sankt-Peterburq universitetindən antropoloq və etnoqraf kimi qayıtmışdı. Artıq aspirantura və elmi işlərinə də başlamışdı. Yolu bəlli idi – böyük zəhmət, əziyyət tələb edəcək işlər, edəcəkləri, bağlı qalmış tarix səhifələri və onun fikrinə görə səhv olan nəzəriyyələr...

Bu arada, Kərəm müəllim "vətən" ifadəsinə qəti etiraz edirdi, "yurd" ifadəsini isə daha dolğun və yerində olduğunu əsaslandıraraq izah edirdi.

***Sevginin sönməz nuru***

"Etdiklərim, düşündüklərim, edəcəklərim" deviziylə addımlayarkən yolunda bir sevgi işığı yandı. Gözləmədiyi bir məkanda rastına çıxan bir qız "sevgi yönünü" dəyişdi. İş həyatının içində ağıl-kamalla özəl həyatını qurmağı düşündü. Elə "Qazax, Tovuz da özümüzündür" deyən Kərəm müəllim yaşayacağı ömür yolunda çırağı olacaq sevgisini tapmışdı. Raisə xanımla qurduğu ailə həyatı ona iki oğul və bir qız övladı bəxş etdi. Qızına anasının adını versə də, oğlanlarına Oğuz və Səlcuq, nəvələrinə isə Selcan və Baybars adları verərək gələcək iş planının daim gözü önündə təkrarlanmasını istəmişdi. Səmimi ata, qayğıkeş həyat yoldaşı kimi yaşadı ailə həyatını.

Elə bil həyatdan tez gedəcəyini bilirmişmi ki, bu qədər ailə bağı yaratmışdı. Xüsusən də qızı Həmayil ilə ana-oğul demişdilər bir-birinə... Raisə xanımın gözündə Kərəmdən yüksəkdə yüksəklik yox idi...

Ailə bağı o qədər möhkəm idi ki, Kərəm sevgisi ailəsi üçün əbədi bir nur qoyub getmişdi.

***Həsrətin yarası***

Borçalıya tez-tez gələrdi, hətta tədbirlərdə iştirak edərdi. Sarvanobada (dağlarda el bayramı) iştirakı onu o qədər sevindirmişdir ki, gözləri yaşararaq özümü tarixin içində gördüm demişdi. Zəlmixan Yaqubu xüsusi olaraq öz ata yurduna qonaq çağırmışdı. Kəndə gedəndə hər kəs başına toplaşır, bəzən tarixi söhbətlərdən, bəzən ədəbiyyatdan, bəzən isə duzlu əhvalatları dinləyərək ondan ruh alırdı. Kərəm müəllim isə öz növbəsində onlara mənəvi dəstək olurdu.

Kənddə oxuduğu məktəb onun həyat yaddaşının ilk müqəddəsliklərindən idi. Türkiyədə konfransda olarkən TİKA şirkətindən tanış olduğu nümayəndəyə məktəbin təmirini xahiş etmişdi. Kənddə sosial vəziyyətin yaxşı olması üçün çabalayanlardan idi. Bakıda tələbə olan gənclərə, nəinki həmkəndlilərinə, bütün borçalılara dəstək olurdu. Gənclər də hər problemlərində böyük kimi, dayaq kimi Kərəm müəllimə üz tuturdular.

Bütün varlığı ilə el-obası, milləti, Vətəni üçün yanğısı doğrudan da Kərəm yanğısı idi. Bu elin gözü tərəzidir deyənlərin növbəti qələbəsi idi.

Ona çəkilən sədlər həyatının ən böyük zərbəsini vurdu. Onun ürəyini çatladan həsrət idi yurd həsrəti...

***Tarixdə tarix yazan***

Kərəm müəllim deyirdi ki, tarixi yazanlar iki cür olur: qələmi ilə və qılıncı ilə. Türklər tarixi qılıncla yazmağa başları qarışarkən, tarixi qələmlə yazanlar yazdı – görmədən, bilmədən, tanımadan, həqiqətdən uzaq.

Azərbaycanda, hətta türk dövlətlərində yeganə antropoloq və etnoqraf idi ki, belə köklü dəlillərlə, hətta Sankt-Peterburqdakı professor müəllimlərinin redaktəsiylə türk kəllə skeletinin radiusunu sübut edirdi. Bu isə böyük nəticələr idi, hansı ki bu nəticələrlə öz həyatını sona doğru apardı...

***Son söz***

Şəxsi tanışlığım olmasa da, elini, obasını, millətini sevən biri kimi Kərəm müəllimin hər çıxışını, yazılarını, araşdırmalarını yaxından izləyir, onunla fəxr edirdim. Azərbaycanın tarixi Kərəm itkisi yaşadı, borçalılar üçünsə Kərəm həqiqi mənada evdən, ocaqdan yox, eldən getdi...

**Esmira Ələkbərli**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# "KOROĞLU"NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

**Elizbar CAVELİDZE**

*(əvvəli ötən sayda)*

Yuxarıda artıq qeyd etdim ki, ümumiyyətlə, folkloru və xüsusən qəhrəmanlıq eposunu stereotip ifadələrin, möhkəm struktur həcmlərinin, ifadələrinin, istərsə də formulların təkrarlanması xarakterizə edir. Bu baxımdan təhlil olunan eposda ilk növbədə süjetin ziqzaqvari inkişafının, daha doğrusu, bir epizoddan o birisinə keçmənin identik, möhkəm frazeologiyası, istərsə də ifadələri diqqət çəkir. Bu barədə artıq yuxarıda söhbət açdım və bir neçə müvafiq nümunə gətirdim. Lakin yenə də struktur kəlmələrin nümunəsini gətirmək istəyirəm, çünki təhlil olunan eposun kompozisiya məhvərinin, belə demək mümkünsə, şəbəkə nöqtəsidir; müxtəlif epizodları ki, bir növ qaydaya salır, bir epizoddan o birisinə keçilməsinin qanuniləşdirilmiş qaydasıdır. Məsələn: a) "İndi bunlar burada qalmaqda olsunlar, sənə kimdən deyim, Xoca Əzizdən" (Bax: "Koroğlu", səh. 232; "ქოროღლი", səh. 255). b) "Koroğlu oxumağında olsun, paşa qulaq asmağında, dəlilər də gözləməyində, sənə kimdən deyim, Giziroğlu Mustafa bəydən" (Bax: "Koroğlu", səh. 242; "ქოროღლი", səh. 266). c) "İndi qasid şəhərdən çıxmaqda olsun, qul da Ələmqulu xanın yanında qalmaqda, sənə kimdən deyin, Dəmirçioğlu gildən" (Bax: "Koroğlu", səh. 452; "ქოროღლი", səh. 468). ç) "Bunlar burada deyib-eşitməkdə olsunlar, sənə kimdən deyim, Cəfər paşadan" (Bax: səh. 106; "ქოროღლი", səh. 140) və sair.

Eləcə də stereotipik frazeologiya məsafə gedəndə və məsafə aşanda istifadə olunur. Məsələn: a) "Sərin hava, aylı gecə. At elə bil ki, küləkdən qanad taxıb uçmağa başladı. At az getdi, üz getdi, dağ aşdı, dərə keçdi, düz getdi, üç günlük yolu bir günə kəsib, aşıq Cününu Çənlibelə yetirdi" (Bax: "Koroğlu", səh. 109; "ქოროღლი", səh. 144). b) "Koroğlu Qıratın ziltəngini bərkitdi. Bir əlini atın yalmanına atıb belinə sıçradı. Dəlilər, xanımlar Koroğlunun elə Qırata sıçramasını gördülər. Qırat yel kimi əsdi, quş kimi uçdu, gədiklər keçdi, bellər aşdı, yoxuşlar çıxdı, enişlər endi, yerin damarlarını kəsib, bir neçə gündən sonra Təklə-Türkmana çatdı" (Bax: "Koroğlu", səh. 183; "ქოროღლი", səh. 211). c) "Keçəl Həmzə çarığını geydi, patavasını bərkitdi, dəstərxanına bir-iki çörək qoyub belinə bağladı, düşdü yolun ağına. Pay-piyadə, günə bir mənzil, təyyi-mənazil, orada ayla, illə, burada müxtəsər dillə, az getdi, çox dayandı, çox getdi az dayandı, bir axşamüstü gəlib Çardaqlı Çənlibelə çatdı" (Bax: "Koroğlu", səh. 281; "ქოროღლი", səh. 320-321). ç) "Qul razı oldu. Səhər tezdən almalısın aldı, götürməlisin götürdü, payi-piyada Çənlibelə tərəf yola düşdü. O, necə deyərlər, çəkdi çarığının dabanını, qırdı yerin damarını, günə bir mənzil, az getdi, üz getdi, dərə, təpə düz getdi, günlərin birisində gəlib Çənlibelə çatdı. Keşikçilər onu Çənlibelin həndəvərlərində görüb, tutub Koroğlunun yanına gətirdilər" (Bax: "Koroğlu", səh. 407; "ქოროღლი", səh. 428) və sair.

Qısası, gətirilən çıxarışlardan birinci və ikinci hallarda da möhkəm model strukturu yaradılıb ki, bu da söz və kəlmələrin müxtəlif dürlüyü ilə müqayisə edilib, lakin elə eyni fikrin və hədəfə çatmağın vasitəsidir, istərsə də üsuludur. Bu möhkəm, qanuniləşmiş frazeologiya strukturu, Yaxın Şərqin klassik, istərsə də divan ədəbiyyatı üçün olduğu kimi, eləcə də xalq yaradıcılığı üçün yad deyildir, illah da ki, ümumiyyətlə, Orta əsrlərin poetik sənət sahəsində təkrara necə əhəmiyyət verildiyini xatırlasaq, onda bu möhkəm "həcmliliyi" nəsr, eləcə də nəzm səviyyəsində emosiyalı inpulsun yaradılmasının mühüm ünsürü olaraq hesab etməliyik.

Bu qəhrəmanlıq eposunda insanın, qadın, istərsə də kişi olsun, bünyəsi və zahiri görünüşü böyük ustalıqla yaradılmışdır. Çünki eposun mübariz ruhuna müvafiq olaraq insanın zahiri simasını onun mənəvi aləmi də təsvir edir. Belə ki, əgər igidin mənəvi mətinliyi yoxdursa, yalnız fiziki qüvvə ilə heç nəyə nail ola bilməz və özünü bəyəndirə bilməz. Qadınların gözəlliyi də o zaman dolğundur ki, əgər o zehni açıqlığı ilə və müdrikliyi ilə müqayisə olunub. İllah da ki, ağıl gözəllikdən yüksəkdə də durur. Belə, məsələn, ilk qadın olan və məhəbbətin əsiri olaraq özünü Koroğluya təqdim edən, ona qoşulub qaçan Nigar xanım özünün dərrakəsi və təmkini ilə Çənlibelin pərəstişinə çevrildi, buna da ki, bütün dəlilər pərəstij edir, onun sözünü, istərsə də tövsiyəsini həqiqət olaraq qəbul edir və ona itaət edirlər. Nigar xanımın özünün qırılmaz xarakteri ilə fərqlənən Koroğluya böyük təsiri vardır. Lakin bu sonuncu Nigar xanımın tövsiyəsini nəzərə almayanda fəlakət və bədbəxtliyə düçar olur. Qeyd etmək lazımdır ki, Koroğlunun tayı-bərabəri olan Nigar xanımın yüksək nüfuzu sanki bütün boylarda özünü büruzə verir. Eləcə də bu iki insanın nəcib və zərif hissləri obrazlı şəkildə verilmişdir. Belə ki, onların yüksək əxlaqi məhəbbəti bundan xəbər verir. Elə burada əlahiddə şəkildə qeyd etməliyəm ki, Nigar xanım yumor hissi ilə də mükafatlandırılıb. Bu, ələlxüsus, Koroğlunun qüsurunu açıqlayanda və sir-sifətdən çox qara olduğunu deyəndə aşkarlanır. Qısası, Nigar xanımın xarakteri, ağlı və düşüncəsi bu qəhrəmanlıq eposunun inkişafının bir həkk olunmuş istinad nöqtəsidir, lakin oxucunu bir şey hər halda təəccübləndirə bilər – başqa xanımlardan fərqli olaraq onun gözəllik obrazı heç yerdə üzərə çıxarılmamışdır. Bunun səbəbi isə, mənim müşahidəmə görə, bunlardır: birincisi, Koroğlunun ən sevimli xanımı öz-özlüyündə gözəldir və ona obrazlılıq lazım deyil və ikincisi də, əxlaqlılıq və dərrakəlilik öz-özlüyündə fiziki heyrətliliyin heç nə ilə doldura bilmədiyi və əksildə bilmədiyi yüksəldilmiş gözəllikdir.

Bir şey şəksizdir ki, bu eposda təqdim olunan qadınların simaları gözəlliyi ilə, güclü sevgi hissləri ilə, ağıl-dərrakəsi ilə fərqlənir ki, ən başlıcası, sədaqəti ilə, qorxulu və təhlükəli durumda silahlanmağa və öz ömür-gün yoldaşları ilə birgə mübarizə aparmağa hazırdırlar. Bax, dastan söyləyicisi nə deyir: "İşi belə görəndə xanımlar da qalxdılar ayağa, qılınc götürdülər, qalxan götürdülər, altdan geyinib, üstdən qıfıllandılar, üstdən geyinib altdan qıfıllandılar, Eyvaza qoşulub bəndərgahlara çıxdılar" (Bax: "Koroğlu", səh. 644; "ქოროღლი", səh. 657).

Onu da qeyd etməyi məqsədə uyğun hesab edirəm ki, əsərin qəhrəmanı olan bütün xanımlar ya xotkar, ya paşa, ya da bəy qızıdır. Doğrudur, onları qaçırırlar, lakin bu qaçırılma elə onlar tərəfindən təşkil olunmuş və onlar tərəfindən buna imkan yaradılmışdır. Mühümü, hər halda, odur ki, bu qaçırılan qızların ataları və yaxınları məqsədi bu yüksək məqama malik təbəqənin kökünü kəsmək olan Koroğlu ilə birlikdə amansızcasına mübarizə aparır. Lakin müəyyən olunduğu kimi, bu fakt ilə birincisi, sosial qeyri-bərabərliyin qanuniləşdirilmiş ştampı açıqlanır və zənginliklə əldə olunan və genetik olaraq əmələ gələn təkəbbürlü baxış dairəsindən igidliyin üstünlüyü bir növ göstərilir; ikincisi də, xanımların hərəkətlərini Koroğlunun, necə ki, müqayisə olunmaz igidin üzünü və dəliləri görməklə böyük əyanların törəmələrinin baş qaldıran məhəbbətin güclü duyğusu şərtləndirir. Məhz elə Məhbub xanımın Koroğlunun oradan buraya gətirən hansı sirrin olduğu sualına cavabı bundan xəbər verir.

"Koroğlu, bizi buraya gətirən o sirdi, hansı ki, Nigar xanımı İstanbuldan, Telli xanımı Ərzurumdan, o biri xanımları da öz yerlərindən buraya gətirib".

Yuxarıda qeyd olunan o demək deyildir ki, eposda gözəl qızların gözəlliyinin obrazına rast gəlmirik. Xeyr, cənablar, rast gəlirik, lakin onun gözəlliyini təsvir edərkən müxtəlif üsul və forma ilə bəyan edilib ki, onların ağıl və düşüncə primatı sanki həmişə qeyd olunub. Onlardan bəziləri: "Aşıq Cünun Telli xanımı heç görməmişdi. İçəriyə girib gördü, vallah, bu elə bir gözəldi, elə bir gözəldi ki, aya deyir sən çıxma, mən çıxım, suya deyir, sən axma, mən axım" (Bax: "Koroğlu", səh. 104; "ქოროღლი", səh. 139). Gətirilən çıxarış onunla diqqətə layiqdir ki, qadının portreti fırça ilə deyil, sadəcə xalq arasında ayaq tutan təbiət ilə deyişmə yolu ilə yaradılır. Qeyt etmək lazımdır ki, Telli xanım qolu-qüvvəti ilə fərqlənirdi, igid, pəhləvan qız idi, bir çox pəhləvanın öhdəsindən gəlirdi (Bax: "Koroğlu", səh. 104; "ქოროღლი", səh. 138).

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com "ეხი ოოლი" საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 SENTYABR 2023-CÜ İL № 017 (188)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# 2023-CÜ İLİN MİLLİ MÜƏLLİM MÜKAFATININ BEŞLİYİ ELAN EDİLİB




Milli Müəllim Mükafatının 5 finalçısının adı açıqlanıb. Onlardan biri oktyabrın 5-də Beynəlxalq Müəllimlər Günü Milli Müəllim Mükafatının sahibi olaraq Qudavadze-Patarkatsişvili Fondu tərəfindən 15 000 lari ilə mükafatlandırılacaq.

2023-cü ilin Milli Müəllim Mükafatının finalçılarını müsabiqənin təşkilatçıları və dəstəkçiləri elan ediblər. Finalçılar arasında Marneulidən olan gənc müəllim Kamran Əfəndiyev də var.

*Milli Müəllim Müküfatının beşliyinə daxil olan iştirakçılar bunlardır:*

**Kamran Əfəndiyev – Marneuli bələdiyyəsinin Mollaoğlu və Tsopi kənd icitmai məktəbinin gürcü dili ikinci dil kimi fənni üzrə müəllim.**

**İna İmedaşvili** – Tbilisi UG məktəbinin ibtidai sinif, gürcü dili və ədəbiyyatı müəllimi.

**Marine Kvaratsxelia** –Akademik Eqnate Pipia adına Tsalencixa bələdiyyəsinin Çkvaleri icmasının ictimai məktəbinin gürcü dili və ədəbiyyatı müəllimi.

**Nino Psuturi** – Qori 8 saylı ictimai məktəbin biologiya müəllimi.

**Nino Niparişvili** – Kaspi bələdiyyəsinin "Besik Niparişvili" MMC Çoxşaxəli Məktəb – Gimnaziyasının mən və vətəndaş, vətəndaşlıq və vətəndaş təhsili müəllimi.

***Qeyd edək ki, Milli Müəllim Mükafatı Təhsil Koalisiyası, Təhsil və Elm Nazirliyi və Müəllimlərin Peşə İnkişafı üzrə Milli Mərkəz arasında bağlanmış memorandum əsasında 2017-ci ilin 13 mayında təsis edilib.***

***Qeyd olunan təşəbbüs Gürcüstanda artıq 7-ci dəfə həyata keçirilir və bu, müəllim peşəsinin populyarlaşdırılmasına istiqamətlənmiş qlobal kampaniya – "The Global Teacher Prize"ın bir hissəsidir.***

*Mənbə: edu.aris.ge*

# MİLLİ QALEREYADA RASİM HƏSƏNOVUN ƏSƏRLƏRİNDƏN İBARƏT SƏRGİ KEÇİRİLİB

Tbilisidə yerləşən Milli Qalereyada gənc heykəltəraş-rəssam Rasim Həsənovun əsərlərindən ibarət "Üsyan" adlı sərgi keçirilib.

Sentyabrın 10-da sərginin açılışında tanınmış incəsənət xadimləri, ziyalılar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Rəssamın yağlı boya ilə və gipsdən hazırlanmış 40-a yaxın əsərində terror, müharibə və zorakılığa qarşı mübarizə, etiraz öz əskini tapıb.

Sərgi oktyabrın 19-dək davam edəcək.




Rasim Həsənovun yaradıcılığı əsasən insanın və onu əhatə edən ətraf mühitin öyrənilməsi ilə bağlıdır. Rəssam öz əsərlərində reallıq anlayışını inkar edir. Onun fikrincə, qeyri-reallıq insanı doğurur, insan isə reallığı yaradır. Rəssamın əl işləri tamaşaçının əqidəsini, etiqadını uçurub-dağıdır, alt-üst edir və iflasa uğradır. Etiqad varlığın illüziyasının vacibliyini yaradır, o, insanın reallıq qanunlarını sındıraraq öz reallığını formalaşdırır.

Rəssamın işlərində, hərfi mənada, kətandan çıxaraq, çərçivələri aşaraq tamaşaçının da olduğu məkana daxil olan insan və heyvanlar və ya onların bədən üzvləri, bəzən isə məişət əşyaları həm əsərlərin hazırlandığı material, həm də ideya formasında tamaşaçının düşüncə rahatlığını və etiqadını pozmaq üçün onun şəxsi məkanına daxil olur, tamaşaçı ilə təmasda olur, onu üç ölçülü mühitə salaraq başqa reallığa götürür.

Əsərlərin ideal olmayan formaları və onların dəqiqliklə işlənilməməsi onlara baxan tamaşaçıda natamamlıq, yarımçıqlıq hissi yaradır və tamaşaçını da heç nəyin tam, bütöv olmamasına əmin edir. Çünki, rəssamın fikrinə görə, natamamlıq orijinallıq yaradır, xaos nizam yaradır.

Qeyd edək ki, Rasim Həsənovun ilk fərdi sərgisi 2018-ci ildə Rustavi şəhərində keçirilib.

# AZƏRBAYCANIN ELM VƏ TƏHSİL NAZİRLİYİ GÜRCÜSTANDAKI AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏR ÜÇÜN 21 MİN NÜSXƏ DƏRSLİK GÖNDƏRİB



Azərbaycanın Elm və Təhsil Nazirliyi Prezident İlham Əliyevin tapşırığına əsasən Gürcüstandakı azərbaycandilli məktəblər üçün 2023-2024-cü tədris ilində istifadə edilməsi nəzərdə tutulan dərsliklər və müəllimlər üçün metodik vəsaitlər göndərib.

Sentyabrın 13-də Tbilisiyə çatdırılmış kitablar Azərbaycanın Gürcüstandakı səfirliyinin vasitəsilə Gürcüstanın Təhsil və Elm Nazirliyinə təhvil verilib. Bildirilib ki, Gürcüstanın Təhsil və Elm Nazirliyinə 18 adda 21 402 nüsxə Azərbaycan dili və ədəbiyyatı dərsliyi təqdim edilib. Bu dərslik və metodik vəsaitlər Gürcüstanın Təhsil və Elm Nazirliyi tərəfindən azərbaycandilli məktəblərə paylanacaq.

Qeyd edək ki, Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildən etibarən Gürcüstanda Azərbaycan dilində təhsil alan I-XI sinif şagirdləri üçün dərsliklər göndərilməkdədir. Bugünədək Azərbaycanın Elm və Təhsil Nazirliyi tərəfindən Gürcüstandakı azərbaycandilli məktəblərə ümumilikdə 600 mindən çox dərslik və digər metodik vəsait göndərilib.

# GÜRCÜSTANIN XARİCİ DÖVLƏT BORCU ARTIB



Gürcüstanın xarici dövlət borcu son bir ildə 876 milyon 765 min dollar artıb. Bu barədə Gürcüstan Maliyyə Nazirliyi açıqlama verib.

Bildirib ki, 2023-cü ilin avqust ayına olan statistikaya əsasən, Gürcüstanın xarici dövlət borcu 8 milyard 568 milyon dollar təşkil edib. Bu da hazırkı məzənnə ilə 22 milyard 528 milyon lariyə bərabərdir.

Son bir ildə ölkənin xarici dövlət borcu artsa da, iyul ayı ilə müqayisədə 27 milyon dollar azalıb.

Gürcüstanın ən böyük kreditorları Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və Beynəlxalq İnkişaf Bankıdır.

# AZƏRBAYCANIN GÜRCÜSTAN İQTİSADİYYATINA İNVESTİSİYA QOYULUŞU 3 DƏFƏ ARTIB



2023-cü ilin birinci yarısında Azərbaycanın Gürcüstan iqtisadiyyatına birbaşa investisiya qoyuluşu 45 milyon 446 min dollar təşkil edib.

"APA-Economics" Azərbaycan Mərkəzi Banka istinadən xəbər verir ki, bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,9 dəfə və ya 30 milyon 167 min dollar çoxdur. 2022-ci ilin yanvar-iyun aylarında Azərbaycanın Gürcüstan iqtisadiyyatına investisiya qoyuluşu 15 milyon 447 min dollar təşkil edib.

Qeyd edək ki, bu dövrdə Gürcüstanın Azərbaycan iqtisadiyyatına birbaşa investisiya qoyuluşu isə 37,2 % azalaraq 8,9 milyon dollara bərabər olub.

**Təsisçi:**
**"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"**

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.